**AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ**

**Ə M R**

**№ 328**

**Bakı şəhəri** **22 dekabr 2016-cı il**

**İcra intizamına nəzarətin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər barədə**

Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam, tapşırıqlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının icrasına nəzarətin gücləndirilməsi məqsədilə

**ƏMR EDIRƏM**

1. Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam, tapşırıqlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının icrasına aşağıdakı qaydada məsul şöbələr müəyyən edilsin.

1.1 **Hüquqi təminat şöbəsi -** Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının (2014-2018-cü illər) təsdiq edilməsi haqqında AR Prezidentinin 24 iyul 2014-cü il tarixli, 667 saylı Sərəncamı üzrə

1.2 **Ailə problemləri şöbəsi -** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cı il tarixli, 2966 saylı sərəncamı üzrə

1.3 **İnformasiya və analitik araşdırmalar şöbəsi -** "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 27 aprel 2016-cı il tarixli 1993 saylı sərəncamı üzrə

1.4 **İnformasiya və analitik araşdırmalar şöbəsi** - "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nın icrası barədə Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2012-ci il tarixli 2621 nömrəli sərəncamı üzrə

1.5 **Uşaq problemləri şöbəsi** - Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli Sərəncamı üzrə

1.6 **Ailə problemləri şöbəsi** - "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2014-cü il tarixli Sərəncamı üzrə

1.7 **Uşaq problemləri şöbəsi-** Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2015-ci il tarixli Sərəncamı üzrə

1.8 **Uşaq problemləri şöbəsi** –İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram"ın təsdiq edilməsi barədə AR Nazirlər Kabinetini 37 saylı 6 fevral 2014-cü il tarixli qərarı üzrə

1.9 **Ailə problemləri şöbəsi** - «2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı»ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 fevral tarixli 63 nömrəli qərarı üzrə

1.10 **Uşaq problemləri şöbəsi** - "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya" Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2015-ci il tarixli 1645 saylı Sərəncamı üzrə

2. Əmrin icrasına nəzarət öz səlahiyyətləri daxilində Komitənin sədr müavinləri S.Qəhrəmanova və A.Sofiyeva tərəfindən həyata keçirilsin.
3. Kadr və kargüzarlıq şöbəsinin müdiri E.Qurbanlı əmrin surətinin Komitənin aidiyyəti şöbələrinə təqdim edilməsini təmin etsin.

**Sədr** **Hicran Hüseynova**